ŞİRKƏTLƏR ÜÇÜN KORPORATİV DÜRÜSTLÜK PRİNSİPLƏRİ

"TRANSPARENCY INTERNATIONAL" TƏŞKİLATININ MARAQLI TƏRƏFLƏRLƏ BİRGƏ TƏŞƏBBÜSÜ

“Transparency International” bütün dünyada korrupsiyaya qarşı mübarizədə aparıcı beynəlxalq qeyri-hökumət təşkilatıdır. Beynəlxalq katibliyi Berlin şəhərində yerləşən “Transparency International” təşkilatı dünyanın 90-dan çox ölkəsində yerləşən milli bölmələri vasitəsilə həyata keçirilən antikorrupsiya fəaliyyətini əlaqələndirir. Bu bölmələr özlərinin siyasi xəttini müəyyənləşdirməkdə və fəaliyyətləri üçün maliyyə vəsaitinin artırılmasında azad seçimə malik olan müstəqil yerli QHT-lərdir. “Transparency International” aşağıdakı prinsipi özünə rəhbər tutur: “Korrupsiya ölkəyə aid xüsusi bir hal olduğundan, yerli təşkilatların fəaliyyəti göstərilən hər hansı xarici təsirdən və ya cəhddən daha effektli ola bilər.”

“Şəffaflıq Azərbaycan” vətəndaş cəmiyyətinin və elmi dairələrin nümayəndələri tərəfindən təsis olunmuş və tam səlahiyyətli yerli bölmə kimi “Transparency International” təşkilatı tərəfindən akkreditasiya olunmuşdur.

Müəllif:

Tərcümə etdi:

Redaktə etdi:

© Üz qabığı: XXXXXXXX

Avropa İttifaqının Milli Şəffaflıq Sisteminin qiymətləndirilməsi layihə çərçivəsində maliyyələşdirilən bu sənəddə təqdim olunan məlumatların düzgünlüyünü yoxlamaq üçün bütün səylər göstərilmişdir. Məlumatlar 2013-cü ilin 1 oktyabr tarixinə qədər olan dövr üçün düzgün hesab olunmalıdır. Bu sənəd heç bir halda Avropa İttifaqının rəsmi mövqeyini əks etdirə bilməz. “Beynəlxalq Şəffaflıq” və onun yerli nümayəndəsi “Şəffaflıq Azərbaycan” təşkilatı bu məlumatların digər məqsədlər üçün və ya kontekstdən kənar istifadəsinə görə heç bir məsuliyyət daşımır.

İSBN: XXXXXXXX

© 2015 "Beynəlxalq Şəffaflıq " təşkilatı. Bütün hüquqları qorunur.

MÜNDƏRİCAT

ÖN SÖZ

MARAQLI TƏRƏFLƏRİN İŞTİRAKI

1. GİRİŞ

2. BİZNES ÜÇÜN PRİNSİPLƏR

3. RÜŞVƏT ƏLEYHİNƏ FƏALİYYƏT PROQRAMININ HAZIRLANMASI

4. RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

5. PROQRAMININ ƏHATƏ DAİRƏSİ

5.1. MARAQLARIN TOQQUŞMASI

5.2. RÜŞVƏT

5.3. SİYASİ XARAKTERLİ ÖDƏNİŞLƏR

5.4. XEYRİYYƏ VƏ SPONSORLUQ XƏRCLƏRİ

5.5. ASANLAŞDIRMA ÖDƏNİŞLƏRİ

5.6. HƏDIYYƏLƏR, QONAQPƏRVƏRLİK VƏ DİGƏR XƏRCLƏR

6. PROQRAMIN İCRASI TƏLƏBLƏRİ

6.1. TƏŞKİLATİ MƏSƏLƏLƏR VƏ SƏLAHİYYƏTLƏR

6.2. BİZNES MÜNASİBƏTLƏRİ

6.3. İNSAN QAYNAQLARI

6.4. TƏLİMLƏR

6.5. PROBLEMLƏRİN QALDIRILMASI VƏ TÖVSİYƏLƏR

6.6. KOMMUNİKASİYA VƏ HESABATLARIN HAZIRLANMASI

6.7. DAXİLİ NƏZARƏT VƏ KARGÜZARLIQ

6.8. MONİTORINQ VƏ İCMAL

6.9. DÖVLƏT ORQANLARI İLƏ ƏMƏKDAŞLIQ

6.10. MÜSTƏQİL AUDİT

7. KORPORATİV DÜRÜSTLÜK İLƏ BAĞLI İLKİN QİYMƏTLƏNDİRMƏ SUALLARI

8. KORPORATİV DÜRÜSTLÜK İLƏ BAĞLI ƏHATƏLİ QİYMƏTLƏNDİRMƏ SUALLARI

ÖN SÖZ

Rüşvətin yaratdığı risklər biznes qurumları üçün ciddi narahatlıq mənbəyidir. Biznes qurumları rüşvət tələbləri ilə üzləşəndə, rəqiblərin korrupsiya yolu ilə haqsız rəqabəti və ya öz əməkdaşlarının etik davranış kodekslərini pozması zamanı belə risklərə məruz qalırlar.

Biznes qurumları üçün rüşvət əleyhinə fəaliyyət prinsipləri ilk dəfə 2003-cü ildə dərc ediləndən bəri biznes mühiti əhəmiyyətli dərəcədə dəyişib. Rüşvət əleyhinə sərt milli qanunvericilik aktlarının qəbulu və onların icrası, müxtəlif şirkət rəhbərləri və əməkdaşlarına qarşı cinayət məsuliyyəti və rekord cərimələr biznes qurumlarına ciddi xəbərdarlıq siqnalı göndərməkdədir. Sosial məsuliyyətli sərmayə fondları, eləcə də öz reytinq cədvəllərini hazırlayan zaman rüşvət əleyhinə meyarları nəzərə alan beynəlxalq qurumlar da bu sahədə təzyiqləri artırırlar.

Biznes tənzimləyiciləri və maraqlı tərəflər nöqsanlara qarşı daha az dözümlü olduqca müvafiq şirkətlər də rüşvətin yaratdığı risklərin aşkarlanması və azaldılması üçün davamlı səylər göstərməli olduqlarını anlayırlar.

Şirkətlərin rüşvət əleyhinə effektiv siyasətlərinin hazırlanması və icrasına yardım məqsədilə "Beynəlxalq Şəffaflıq" və "Beynəlxalq Sosial Hesabatlılıq" təşkilatları 2003-cü ildə bir araya gələrək "Biznes qurumları üçün rüşvət əleyhinə fəaliyyət prinsipləri"ni hazırlayıb. Bu prinsiplərin hazırlanmasında biznes qurumları, elmi ictimaiyyət, həmkarlar ittifaqları və digər qeyri-hökumət qurumlarının nümayəndələrindən təşkil olunmuş Rəhbər komitənin timsalında maraqlı tərəflər də iştirak edib. Rəhbər komitənin tərkibi zamanla dəyişsə də, komitə bu prinsiplərin geniş yayılması və dəstəklənməsi istiqamətində öz səylərini əsirgəməyib.

Biznes üçün rüşvət əleyhinə fəaliyyət prinsipləri "Beynəlxalq Şəffaflıq" təşkilatının özəl sektorda fəaliyyəti üçün başlıca platforma rolunu oynayır. Eyni zamanda bu prinsiplər rüşvət əleyhinə digər müxtəlif standartların və təşəbbüslərin yaranmasına öz töhfəsini verib. Son on il ərzində bu prinsiplər onlarla dilə tərcümə edilib və "Beynəlxalq Şəffaflıq" təşkilatının biznes ictimaiyyəti ilə birgə fəaliyyətində geniş istifadə olunub. Bu prinsiplər "Beynəlxalq şəffaflıq" təşkilatının başlıca araşdırma metodlarına da daxil edilib.

Bu üçüncü nəşr rüşvət əleyhinə fəaliyyət təcrübəsində son yenilikləri ehtiva edir və 2009-cu ildə dərc edilən ikinci nəşrin mətninə əsaslanır. Üçüncü nəşrin hazırlanması prosesində son ayların ictimai müzakirələri, eləcə də Rəhbər komitənin dəyərli ekspert rəyləri və bilgisi mühüm rol oynayıb.

Müxtəlif konsultasiyalar, yerlərdə aparılan təcrübələr və elmi-praktiki seminarlar bütün bu illər ərzində rüşvət əleyhinə fəaliyyət prinsiplərinin və onunla əlaqəli tədqiqat metodlarının zənginləşməsinə öz töhfəsini verib. Bu günlərdə rüşvət əleyhinə effektiv fəaliyyət proqramının necə olması barədə əvvəlki illərə nisbətən daha yaxşı anlayış olsa da, rüşvət hələ də başlıca çətinlik olaraq qalmaqdadır. "Beynəlxaq Şəffaflıq" hesab edir ki, biznes üçün dürüstlük daha vacibdir. Biz ümid edirik ki, rüşvət əleyhinə fəaliyyət prinsipləri biznes qurumları üçün istinad nöqtəsi olmaqda davam edəcək. Şirkətlər rüşvət əleyhinə daha güclü və daha effektiv proqramlar hazırlayıb həyata keçirdikcə qlobal səviyyədə rüşvət əleyhinə daha yüksək və vahid standartlar da meydana gələcək.

Hörmətlə,

Cobus de Swardt,
"Beynəlxalq Şəffaflıq" təşkilatının İcraçı Direktoru
Oktyabr, 2013

MARAQLI TƏRƏFLƏRİN İŞTİRAKI

Biznes üçün rüşvət əleyhinə fəaliyyət prinsiplərinin bu üçüncü nəşri maraqlı tərəflərin iştirak etdiyi Rəhbər komitənin ekspert rəyləri nəzərə alınmaqla "Beynəlxalq Şəffaflıq" təşkilatı tərəfindən hazırlanıb. Fəaliyyət prinsiplərinin məzmunu Rəhbər komitənin bir qurum olaraq mövqeyini əks etdirir və onun fərdi üzvlərinin məxsusi mövzularda baxışlarını ifadə etməyə bilər.

Fəaliyyət prinsiplərinin ilk nəşri Rəhbər komitənin ozamankı üzvlərinin rəyləri nəzərə alınmaqla hazırlanmış və 2003-cü ildə dərc edilmişdi. Daha sonra həmin prinsiplər yerlərdə sınaqdan keçirilmiş və ictimai müzakirələrə çıxarılmışdı. 2009-cu ildə fəaliyyət prinsiplərinə kiçik düzəlişlər edilmişdi. Bu isə fəaliyyət prinsiplərinin artıq üçüncü nəşridir. Son dəyişikliklər Rəhbər komitənin rəyləri və ictimai müzakirələrin nəticələri nəzərə alınmaqla həyata keçirilib.

RƏHBƏR KOMİTƏNİN ÜZVLƏRİ

Korporativ üzvlər:

- BP
- HSBC
- Norsk Hydro ASA
- PricewaterhouseCoopers
- Sanlam
- SGS
- Shell International

Qeyri-korporativ üzvlər:

- The Conference Board
- European Bank for Reconstruction and Development
- International Federation of Consulting Engineers
- International Federation of Inspection Agencies
- Social Accountability International
- Supplier Ethical Data Exchange (SEDEX)
- Trade Union Advisory Committee to the OECD
- Transparency International (Chair)
- United Nations Global Compact

Sədr
Cobus de Swardt, Managing Director, Transparency International

Katiblik
Susan Côté-Freeman

ŞİRKƏTLƏR ÜÇÜN KORPORATİV DÜRÜSTLÜK PRİNSİPLƏRİ

1. GİRİŞ

Biznes üçün rüşvət əleyhinə fəaliyyət prinsipləri şirkətlər, qeyri-hökumət təşkilatları və həmkarlar ittifaqları da daxil olmaqla maraqlı tərəflərin iştirakı ilə hərtərəfli proses vasitəsilə hazırlanıb. Bu prinsiplərin məqsədi biznes qurumlarının fəaliyyətlərinin hər aspektində rüşvət əleyhinə effektiv yanaşma hazırlamaları üçün onlara yardım göstərməkdir.

Biznes qurumları geniş etik davranış və korporativ məsuliyyət çərçivəsində rüşvət əleyhinə fəaliyyət proqramı hazırlamalı və tətbiq etməlidirlər. Rüşvət əleyhinə fəaliyyət proqramı effektiv şəkildə rüşvət riskinin qarşısını almalıdır. Rüşvət riski müxtəlif biznes sahələrində və fərqli şirkətlərdə öz dərəcələrinə görə dəyişə bilər, amma heç bir biznes qurumu rüşvət riskindən tam azad hesab edilə bilməz. Rüşvət əleyhinə effektiv fəaliyyət proqramı yalnız rüşvət riskini azaltmaqla kifayətlənmir, eyni zamanda biznes qurumlarının reputasiyasını gücləndirir, əməkdaşların öz iş yerinə hörmətini qaldırır, maraqlı tərəflərdə inamı artırır və biznes qurumunun dürüst və məsuliyyətli davranış öhdəliyini dəstəkləyir.

Bu fəaliyyət prinsipləri biznes qurumlarının rüşvət əleyhinə fəaliyyət proqramlarını hazırlaması, standartlara uyğunlaşdırması və gücləndirməsi üçün çərçivə təklif etmək məqsədi daşıyır. Bu prinsiplər rüşvət əleyhinə olduqca yüksək, lakin nail oluna bilinəcək standartları ehtiva edir. Bu prinsiplər həm dövlət məmurları ilə münasibətlərə, həm də özəl şirkətlər arasında münasibətlərə tətbiq edilə bilər.

Rüşvət əleyhinə fəaliyyət prinsipləri ilk dəfə 2003-cü ildə dərc edilib və 2009-cu ildə onlara ilk dəyişikliklər edilib. 2013-cü ilin bu nəşri Rəhbər komitənin də rəyi nəzərə alınmaqla keçirilən dövri icmal prosesinin bir hissəsidir. Dövri icmal prosesinin məqsədi rüşvət əleyhinə dinamik qanunvericiliyin və dəyişən korporativ davranışın fonunda bu prinsiplərin öz aktuallığını saxlamasına nail olmaqdır.

Prinsiplərin başlıca fokusu rüşvət olaraq qalsa da, bu nəşr eyni zamanda risklərin qiymətləndirilməsi, maraqların toqquşması, dövlət orqanları ilə əməkdaşlıq, asanlaşdırma ödənişləri, lobbiçilik, kommunikasiya və hesabatların hazırlanması kimi mövzuları da əhatə edir. Bu mövzuların ələ alınmasında məqsəd həm rüşvət əleyhinə fəaliyyətlərdə onların əhəmiyyətindən, həm də bu prinsiplərin digər aparıcı kodeks və hüquqi mexanizmlərlə, o cümlədən BMT-in Korrupsiyaya qarşı konvensiyası ilə uzlaşdırılması istəyində yaranır.

RÜŞVƏT -- etimadın pozulması və ya hər hansı qanunsuz hərəkətin baş verməsi üçün təklif edilən, söz verilən, alınan və ya istənilən üstünlükdür.

2. BİZNES ÜÇÜN PRİNSİPLƏR

- Biznes qurumu istər birbaşa, istərsə də dolayı formada rüşvətin bütün formalarını qadağan etməlidir.
- Biznes qurumu rüşvət əleyhinə fəaliyyət proqramı həyata keçirəcəyinə dair öhdəlik götürməlidir. Bu fəaliyyət proqramı biznes qurumunun rüşvət əleyhinə bütün səylərini, o cümlədən dəyərlərini, davranış məcəlləsini, müfəssəl siyasətini və proseduralarını, risklərin qiymətləndirilməsini, daxili və xarici kommunikasiyalarını, təlim və işçilərə tövsiyələrini, daxili nəzarətini və nəzarət mexanizmlərini, monitorinq və auditi əhatə etməlidir.

Bu prinsiplər İdarə Heyətinin dürüstlük, şəffaflıq və hesabatlılıq kimi təməl dəyərlərə öhdəliyinə əsaslanır.

Biznes qurumları etimad və fərdi hesabatlılığa əsaslanan, rüşvətin dözümlü qarşılanmadığı inkluziv korporativ mədəniyyəti təşviq etməlidirlər.

3. RÜŞVƏT ƏLEYHİNƏ FƏALİYYƏT PROQRAMININ HAZIRLANMASI

3.1. Biznes qurumu onun nəzarəti altında olan bütün fəaliyyətlərdə rüşvətin qarşısını almağa yönələn dəyərləri, siyasətləri və proseduraları müfəssəl və aydın şəkildə əhatə edən proqram hazırlamalıdır.

3.2. Biznes qurumu öz proqramını hazırlayarkən və tətbiq edərkən risklərin davamlı olaraq qiymətləndirilməsinə əsaslanmalıdır.

3.3. Biznes qurumu fəaliyyət göstərdiyi hər bir yurisdiksiyada rüşvət əleyhinə qanunvericiliyin bütün tələblərinə ardıcıl olacaq əməl etməlidir.

3.4. Biznes qurumu öz proqramını hazırlayarkən öz əməkdaşları, həmkarlar ittifaqları və digər maraqlı tərəflərlə məsləhətləşmələr aparmalıdır.

3.5. Biznes qurumu öz proqramının hazırlanması və həyata keçirilməsi üçün səmərəli olan bütün daxili və xarici məsələlərdən, o cümlədən yeni və daha yaxşı təcrübələrdən xəbərdar olmalıdır.

4. RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

4.1. Proqram hazırlanarkən biznes qurumunun üzləşdiyi məxsusi risklər, fəaliyyət göstərdiyi şərait və qurumun biznes mədəniyyəti nəzərə alınmalıdır. Bu məxsusi risklərə biznes qurumunun yerləşdiyi ərazidən və biznes sektorundan doğan risklər, eləcə də biznes qurumunun nə dərəcədə böyük və ya kiçik olması, hansı vasitəçi kanallardan istifadə etməsindən yaranan təşkilati risklər də daxildir.

4.2. Risklərin qiymətləndirilməsini həyata keçirmək və ona nəzarət üçün biznes qurumu müvafiq səlahiyyətlər həvalə etməlidir.

5. PROQRAMININ ƏHATƏ DAİRƏSİ

Proqram biznes qurumunun üzləşə biləcəyi bütün əsas rüşvət risklərini hədəfə almalıdır. Ən azı aşağıdakı sahələr proqramda əhatə olunmalıdır.

5.1. Maraqların toqquşması

5.1.1. Biznes qurumu rüşvət riskinə rəvac verəcək bütün mövcud, potensial və ehtimal edilən maraqların toqquşmasını müəyyən etmək, monitorinqini aparmaq və nəzarətdə saxlamaq üçün siyasətlər və proseduralar hazırlamalıdır. Bu siyasətlər və proseduralar direktorlara, digər rəhbərlərə, əməkdaşlara, müqavilə öhdəliyi olan digər tərəflərə (agentlərə, lobbistlərə, vasitəçilərə) eyni dərəcədə şamil edilməlidir.

5.2. Rüşvət

5.2.1. Biznes qurumu istər birbaşa, istərsə də üçüncü tərəflər vasitəsilə baş verməsindən asılı olmayaraq, rüşvətin bütün formalarını qadağan etməlidir.

5.2.2. Biznes qurumu öz əməkdaşlarına həm öz xeyirləri, həm də ailə üzvləri, dostları, tərəfdaşları və ya tanışlarının xeyrinə hər hansı qaydada rüşvət almağı, verməyi və ya təşkil etməyi qadağan etməlidir.

5.3. Siyasi xarakterli ödənişlər

5.3.1. Biznes qurumu, onun əməkdaşları, agentləri, lobbistləri və ya digər vasitəçiləri biznes əməliyyatlarında ədalətsiz üstünlük əldə etmək məqsədilə siyasi partiyalara, təşkilatlara və ya ayrı-ayrı siyasətçilərə siyasi xarakterli birbaşa və ya dolayı ödənişlər etməməlidirlər.

5.3.2. Biznes qurumu siyasi xarakterli bütün qanuni ödənişlərini (siyasi kampaniyalara ayrılan fondlarını) ictimaiyyətə açıqlamalıdır.

5.4. Xeyriyyə və sponsorluq xərcləri

5.4.1. Biznes qurumu öz xeyriyyə və sponsorluq xərclərinin heç bir halda gizli rüşvət forması almasına yol verməməlidir.

5.4.2. Biznes qurumu bütün xeyriyyə və sponsorluq xərclərini ictimaiyyətə açıqlamalıdır.

5.5. Asanlaşdırma ödənişləri

5.5.1. Asanlaşdırma ödənişlərinin[1] rüşvətin bir forması olduğunu qəbul edərək biznes qurumu onları qadağan etməlidir.

5.6. Hədiyyələr, qonaqpərvərlik və digər xərclər

5.6.1. Biznes qurumu təqdim etdiyi bütün hədiyyələrin, göstərdiyi qonaqpərvərliyin və çəkdiyi əlaqədar xərclərin tamamilə təmənnasız olmasını təmin etmək üçün məxsusi siyasət və proseduralar hazırlamalıdır. Hədiyyələrin verilməsi və ya alınması, qonaqpərvərlik və digər xərclər biznes əməliyyatlarının nəticələrinə ədalətsiz formada təsir göstərə biləcəyi hallarda biznes qurumu onları qadağan etməlidir.

6. PROQRAMIN İCRASI TƏLƏBLƏRİ

Bu bölmədə göstərilən tələblər biznes qurumunun öz proqramını icra edən zaman qarşılamalı olduğu minimumlardan ibarətdir.

6.1. Təşkilati məsələlər və səlahiyyətlər

6.1.1. Direktorlar şurası və ya digər ekvivalent orqan biznes qurumunun proqramının həyata keçirilməsinə dair aşkar və fəal öhdəlik götürməlidir.

6.1.2. Baş icraçı direktor (CEO) proqramın ardıcıl olaraq həyata keçirilməsini təmin etmək üçün məsuliyyət daşımalıdır.

6.2. Biznes münasibətləri

6.2.1. Ümumi müddəalar

[1] Asanlaşdırma ödənişləri -- biznes qurumunun legitim gözləntisi olan rutin və ya zəruri hərəkətlərin baş verməsinə nail olmaq, onları tezləşdirmək və ya asanlaşdırmaq məqsədilə ödənilən kiçik qeyri-rəsmi vəsaitlər.

Bu bölmədəki müddəalar bütün biznes qurumlarına şamil olunur.

6.2.1.1. Biznes qurumu nəzarətində olan bütün müəssisələrdə öz fəaliyyət proqramını həyata keçirməlidir.

6.2.1.2. Biznes qurumu onun nəzarətində olmayan, lakin əhəmiyyətli sərmayə yatırdığı və ya biznes münasibətlərində olduğu digər müəssisələrdə oxşar fəaliyyət proqramının hazırlanması və həyata keçirilməsinə nail olmaq üçün öz nüfuzundan istifadə etməlidir.

6.2.1.3. Biznes qurumu nəzarətində olan və ya olmayan müəssisələrlə əməkdaşlıq qurarkən, onlarla birləşərkən, onları satın alarkən və ya onlara əhəmiyyətli sərmayə yatırarkən həmin müəssisələri rüşvət əleyhinə sənədləşdirilmiş, məqsədəuyğun və müvafiq yoxlamadan keçirməlidir.

6.2.1.4. Biznes qurumu rüşvət verən və ya alan, yaxud da belə fəaliyyətlərdə iştirakı ehtimal olunan müəssisələrlə biznes münasibətləri qurmaqdan çəkinməlidir.

6.2.1.5. Biznes qurumu öz tərəfdarları ilə başlıca biznes münasibətlərinin münasib və mütənasib monitorinqini aparmalıdır. Buraya mühasibatlıq və kargüzarlıq sənədlərinin yoxlanması hüququ da daxildir.

6.2.1.6. Biznes qurumu öz fəaliyyət proqramının müvafiq bölmələrinə və ya ekvivalent qaydalara öz biznes tərəfdaşları tərəfindən əməl olunmasını izləməli və sənədləşdirməlidir.

6.2.1.7. Biznes qurumunun fəaliyyət proqramı ilə onun tərəfdaşlarının siyasət və prinsipləri ziddiyyət təşkil edərsə, biznes qurumu öncədən ehtiyat tədbirləri görməlidir. Bu ehtiyat tədbirlərinə tərəfdaş müəssisənin proqramının icrasında nöqsanların düzəldilməsi tələbini və ya sanksiyaların tətbiqini aid etmək olar.

6.2.1.8. Tərəfdaş müəssisə əgər rüşvət əmelləri törədərsə və ya biznes qurumunun proqramı ilə uyğun gəlməyən digər hərəkətlər edərsə, o zaman biznes qurumu müştərək biznes fəaliyyətinə xitam vermək hüququna sahib olmalıdır.

6.2.2. Birgə müəssisələr və konsorsiumlar

6.2.2.1. Birgə müəssisə və ya konsorsiumun fəaliyyət proqramı biznes qurumunun fəaliyyət proqramı ilə uzlaşmadığı hallarda biznes qurumu necə hərəkət edəcəyi ilə bağlı əlavə plana sahib olmalıdır. Məsələn, rüşvət halları baş verən zaman və ya baş vermə ehtimalları zamanı bu plana uyğun olaraq biznes qurumu birgə müəssisə və ya konsorsiumun fəaliyyət proqramının təshihini tələb edə, sanksiyalar tətbiq edə və ya biznes münasibətlərini tərk edə bilər.

6.2.3. Agentlər, lobbistlər və digər vasitəçilər

6.2.3.1. Biznes qurumu agentlər, lobbistlər və digər vasitəçilər vasitəsilə qanunsuz ödənişlər etməməlidir.

6.2.3.2. Biznes qurumu agentlər, lobbistlər və digər vasitəçiləri təyin edən zaman rüşvət əleyhinə sənədləşdirilmiş müvafiq yoxlamalar aparmalıdır.

6.2.3.3. Agentlər, lobbistlər və digər vasitəçilərlə bütün razılaşmalar biznes qurumunun rəhbərliyi ilə öncədən razılaşdırılmalıdır.

6.2.3.4. Agentlər, lobbistlər və digər vasitəçilərə ödənişlər onların göstərdiyi qanuni xidmətlərə müvafiq olmalıdır.

6.2.3.5. Agentlər, lobbistlər və digər vasitəçilər biznes qurumunun fəaliyyət proqramına əməl edəcəkləri barədə müqavilə öhdəliyi götürməlidirlər və onlara bu öhdəliyi izah edən müvafiq sənədlər və tövsiyələr təqdim edilməlidir.

6.2.3.6. Agentlər, lobbistlər və digər vasitəçilər biznes qurumu, auditorlar və ya hökumət tənzimləyicilərinin yoxlamaları üçün müvafiq mühasibatlıq və kargüzarlıq sənədləri tərtib edəcəkləri barədə müqavilə öhdəliyi götürməlidirlər.

6.2.4. Podratçılar və təchizatçılar

6.2.4.1. Biznes qurumu öz satınalmalarını ədalətli və şəffaf formada həyata keçirməlidir.

6.2.4.2. Biznes qurumu öz podratçılarını və təchizatçılarını seçmək üçün mərhələlər müəyyən etməlidir.

6.2.4.3. Biznes qurumu öz podratçıları və təchizatçılarının rüşvət riskini qiymətləndirməli və mütəmadi monitorinqlər aparmalıdır.

6.2.4.4. Biznes qurumu öz fəaliyyət proqramı ilə bağlı podratçı və təchizatçılarını məlumatlandırmalı, eləcə də başlıca podratçı və təchizatçılarının rüşvət əleyhinə siyasətlərini formalaşdırmaq məqsədilə onlarla əməkdaşlıq etməlidir.

6.3. İnsan qaynaqları

6.3.1. Biznes qurumunun insan qaynaqları ilə bağlı fəaliyyəti, o cümlədən işə götürmə, içşilərin vəzifələrinin artırılması, təlimlər, işçilərin fəaliyyətin qiymətləndirilməsi, maddi kompensasiya və işçilərin təqdir edilməsi biznes qurumunun fəaliyyət proqramına dair götürdüyü öhdəlikləri əks etdirməlidir.

6.3.2. Proqrama uyğun olaraq insan qaynaqları siyasəti və təcrübəsi biznes qurumunun əməkdaşları, həmkarlar ittifaqları və digər peşə birlikləri ilə konsultasiya şəraitində hazırlanmalı və həyata keçirilməlidir.

6.3.3. Biznes qurumu rüşvət verməkdən imtina edən əməkdaşının vəzifəsinin aşağı salınmayacağı, cəza və digər neqativ hallarla üzləşməyəcəyinə dair təminat verməlidir (rüşvət verməkdən imtina hətta biznes qurumunun itkilərlə üzləşməsinə səbəb olsa da).

6.3.4. Biznes qurumu öz direktorları və əməkdaşlarının fəaliyyət proqramına məcburi qaydada əməl etmələrini təmin etməli və pozuntulara görə müvafiq sanksiyalar tətbiq etməlidir.

6.4. Təlimlər

6.4.1. Direktorlar, menecerlər, əməkdaşlar və agentlər fəaliyyət proqramı ilə bağlı münasib təlim keçməlidirlər.

6.4.2. Müvafiq hallarda podratçılar və təchizatçılar fəaliyyət proqramı ilə bağlı münasib təlim keçməlidirlər.

6.5. Problemlərin qaldırılması və tövsiyələr

6.5.1. Fəaliyyət proqramının effektiv olması üçün biznes qurumu öz əməkdaşları və digər şəxslərin problemləri zamanında qaldırması və pozuntular barədə məlumat verməsinə şərait yaratmalıdır. Əməkdaşların və digər şəxslərin ehtiyat etmədən və sərbəst şəkildə problemləri qaldırması və

pozuntular barədə məlumat verməsi üçün ("whistleblowing") biznes qurumu təhlükəsiz və əlçatan kanallar təşkil etməlidir.

6.5.2. Proqramın icrası ilə bağlı əməkdaşların tövsiyə və məsləhətlər alması üçün bu və digər kanallar təşkil olunmalıdır.

6.6. Kommunikasiya və hesabatların hazırlanması

6.6.1. Biznes qurumu öz fəaliyyət proqramının effektiv daxili və xarici kommunikasiyasını təşkil etməlidir.

6.6.2. Biznes qurumu öz fəaliyyət proqramı və onun icrasını təmin edən menecment sistemi haqqında informasiyanı ictimaiyyətə açıq saxlamalıdır.

6.6.3. Biznes qurumu öz fəaliyyət proqramına dair məsələlərlə bağlı maraqlı tərəflərlə ünsiyyətdə olmalı, onlarla kommunikasiyanı açıq saxlamalıdır.

6.6.4. Biznes qurumu hökumətlərə etdiyi ödənişlərlə bağlı əlavə informasiyanı ayrıca olaraq hər ölkə üzrə ictimaiyyətə açıqlamağa hazır olmalıdır.

6.6.5. Səhmdarlar qarşısında hesabatlılıq və daha geniş təşkilati şəffaflıq naminə biznes qurumu öz alt şirkətləri, filialları, birgə müəssisələri və digər qurumlarının əsas kapitalını açıqlamağa hazır olmalıdır.

6.7. Daxili nəzarət və kargüzarlıq

6.7.1. Biznes qurumu rüşvətin qarşısını almaq üçün öz mühasibatlığı, kargüzarlığı və digər biznes prosesləri üzərində maliyyə və təşkilati nəzarətdən ibarət effektiv daxili nəzarət sistemi yaratmalıdır.

6.7.2. Biznes qurumu öz maliyyə əməliyyatlarını müfəssəl və dəqiq qeydə alan mühasibatlıq sənədlərini hər zaman maliyyə yoxlaması üçün hazır vəziyyətdə saxlamalıdır. Biznes qurumu "qara kassa" saxlamamalıdır.

6.7.3. Biznes qurumu öz daxili nəzarət mexanizmlərini, xüsusən mühasibatlığını və kargüzarlığını, eləcə də bu nəzarət mexanizmlərinin hazırlanması, icrası və effektivliyini mütəmadi olaraq auditdən keçirməlidir.

6.8. Monitorinq və icmal

6.8.1. Fəaliyyət proqramını davamlı qaydada təkmilləşdirmək məqsədilə biznes qurumu şərhlər və rəylər üçün əlaqə mexanizmləri və digər daxili mexanizmlər təsis etməlidir. Biznes qurumunun rəhbərliyi proqramı monitorinq etməli, onun məqsədəuyğunluğu, adekvatlığı və səmərəliliyini dövri olaraq icmal etməli, ona münasib dəyişikliklər etməlidir.

6.8.2. Biznes qurumunun rəhbərliyi proqramın nəticələrinə dair audit komitəsinə, direktorlar şurasına və ya digər ekvivalent quruma mütəmadi olaraq hesabatlar təqdim etməlidir.

6.8.3. Audit komitəsi, direktorlar şurası və ya digər ekvivalent qurum proqramın nə qədər qənaətbəxş olmasını müəyyən etmək üçün kənardan müstəqil qiymətləndirmələr təşkil etməli və onun nəticələrini illik hesabatda səhmdarlara təqdim etməlidir.

6.9. Dövlət orqanları ilə əməkdaşlıq

6.9.1. Korrupsiya və rüşvət halları ilə əlaqədar istintaq və araşdırmalar zamanı biznes qurumu müvafiq dövlət orqanları ilə münasib qaydada əməkdaşlıq etməlidir.

6.10. Müstəqil audit

6.10.1. Uyğun olan məqamlarda biznes qurumu könüllü şəkildə öz fəaliyyət proqramının hazırlanması, icrası və səmərəliliyini müstəqil auditdən keçirməlidir.

6.10.2. Müstəqil audit keçirildikdən sonra biznes qurumu belə bir kənar yoxlamanın keçirildiyini müvafiq audit rəyi ilə birlikdə ictimaiyyətə təqdim etməlidir.

ŞİRKƏTİNİZİN KORPORATİV DÜRÜSTLÜYÜ NƏ SƏVİYYƏDƏDİR?

Korporativ dürüstlük ilə bağlı ilkin qiymətləndirmə sualları

Cavablar:
a) bəli; b) xeyr; c) qismən; d) planlaşdırılır; e) bizə tətbiq olunmur.

1. RÜŞVƏT ƏLEYHİNƏ QANUNVERİCİLİYƏ ƏMƏL OLUNMASI

1.1. Azərbaycanda və fəaliyyət göstərdiyiniz digər ölkələrdə rüşvət əleyhinə qanunvericiliyin tələblərinə şirkətinizin əməl etməsindən əmin olmaq üçün yoxlama aparırsınızmı?

2. RÜŞVƏT ƏLEYHİNƏ KORPORATİV SİYASƏT

2.1. Rüşvət əleyhinə rəsmi, aktual və dərc edilmiş "sıfır dözümlülük" siyasətiniz mövcuddurmu?

2.2. Şirkətinizin fəaliyyət göstərdiyi bütün yurisdiksiyalarda rüşvət əleyhinə qanunvericiliyə əməl etməsi barədə ictimaiyyət qarşısında öhdəlik götürübmü?

2.3. Şirkətiniz rüşvət əleyhinə fəaliyyət proqramı[2] həyata keçirmək barədə öhdəlik götürübmü?

3. RÜŞVƏT ƏLEYHİNƏ SİYASƏTİN TƏTBİQİ

3.1. Rüşvət risklərini mütəmadi olaraq qiymətləndirirsinizmi və proqramınızı bu risklərə uyğun olaraq hazırlayırsınızmı?

3.2 Proqramınızda aşağıdakı məsələlər üzrə müfəssəl siyasət, proseduralar və nəzarət mexanizmləri mövcuddurmu?

a) Siyasi xarakterli ödənişlər;
b) Xeyriyyə və sponsorluq xərcləri;
c) Asanlaşdırma ödənişləri;
d) Hədiyyələr, qonaqpərvərlik və səyahət xərcləri.

3.3. Proqramı həyata keçirmək üçün müvafiq menecerlərə şirkətinizin rəhbərliyi tərəfində aydın və dəqiq səlahiyyətlər həvalə edilibmi?

3.4. Şirkətinizin effektiv nəzarəti altında olan bütün biznes qurumlarında proqramınız icra edilirmi?

3.5. Şirkətinizin əhəmiyyətli sərmayə yatırdığı və ya biznes münasibətlərində olduğu biznes qurumlarında oxşar proqramların hazırlanması və icrasını təşviq edirsinizmi?

3.6. Proqram barəsində aşağıdakı şəxslər məlumatlandırılırmı?

a) Bütün əməkdaşlar
b) Biznes tərəfdaşlarınız
c) Digər maraqlı tərəflər

3.7. Şirkətinizin insan qaynaqları ilə bağlı təcrübəsi[3] proqrama dair öhdəliklərinizi əks etdirirmi?

[2] Bu proqram şirkətin rüşvət əleyhinə bütün səylərini, o cümlədən dəyərlərini, davranış kodeksini, müfəssəl siyasət və proseduraları, risklərin idarə edilməsini, daxili və xarici kommunikasiyaları, təlimləri, işçilərə məsləhət və tövsiyələri, nəzarət mexanizmlərini, monitorinq və auditi əhatə etməlidir.

3.8. Aşağıdakı şəxslərə ixtisaslaşmış təlimlər keçirilirmi?

a) Bütün direktorlar, menecerlər, əməkdaşlar və agentlər;
b) Yüksək riskli üçüncü tərəflər, o cümlədən vasitəçilər, podratçılar və təchizatçılar.

3.9. Əməkdaşlarınız və digər şəxslərin təlimatlar alması, ya da cəzalanmaq qorxusu olmadan problemləri qaldırması üçün şirkətiniz təhlükəsiz və əlçatan kommunikasiya kanalları təklif edirmi?

3.10. Problemlərin qaldırılması (whistleblowing) siyasətiniz barəsində üçüncü tərəflər və hökumət orqanları münasib qaydada məlumatlandırılırmı?

3.11. Şirkətinizdə rüşvət əleyhinə daxili nəzarət mexanizmləri, o cümlədən mühasibatlıq, kargüzarlıq və digər biznes proseduraları üzərində maliyyə və təşkilati nəzarət mövcuddurmu?

3.12. Hər hansı əhəmiyyətli biznes qərarlarında əməkdaşlarınızın mümkün şəxsi maraqlarını bəyan etməsini təmin edəcək mexanizm və ya proseduralar mövcuddurmu?

3.13. Şirkətiniz öz satınalma və tender müqavilələrinə korrupsiya əleyhinə müddəalar daxil edirmi?

3.14. Şirkətiniz rəhbərlikdə təmsil olunan şəxslərin əmlak və gəlirlərini bəyan etməsini tələb edirmi?

4. MONİTORİNQ VƏ İCMAL

4.1. Şirkətinizin daxili nəzarət mexanizmləri, xüsusən də mühasibatlıq və kargüzarlığı mütəmadi audit və yoxlamadan keçirilirmi?

4.2. Şirkətinizin mümkün rüşvət hallarına qarşı görüləcək tədbirlər planı mövcuddurmu?

4.3. Şirkətinizin rəhbərliyi proqramın yararlılığı və effektivliyini mütəmadi olaraq təftiş edirmi və bu yoxlamalara uyğun olaraq proqramı təshih edirmi?

4.4. Audit komitəsi, Direktorlar şurası və ya digər ekvivalent qurum mütəmadi olaraq proqramın münasibliyinin müstəqil qiymətləndirməsini aparırmı?

4.5. Şirkətiniz proqram və onun icrası barədə məlumatı ictimaiyyətə açıqlayırmı?

4.6. Proqramın kənar auditi həyata keçirilirmi və yekun audit rəyi ictimaiyyətə açıqlanırmı?

[3] Buraya həmçinin daxildir: işə götürmə, təlimlər, fəaliyyətin qiymətləndirilməsi, işçilərin təqdir olunması və ya vəzifələrinin artırılması.

KORPORATİV DÜRÜSTLÜK İLƏ BAĞLI ƏHATƏLİ QİYMƏTLƏNDİRMƏ SUALLARI

Cavablar:
a) bəli; b) xeyr; c) qismən d) planlaşdırılır e)bizə tətbiq olunmur

1. PRİNSİPLƏR
1.1. Rüşvətin bütün formalarının qadağan olunması.

1.1.1. Şirkətin dürüst və şəffaf sahibkarlıq öhdəliyi də daxil olmaqla korporativ dəyərlərini əks etdirən yüksək səviyyəli proqram sənədi mövcuddurmu?

1.1.2. Şirkətin Direktorlar şurası və ya digər ekvivalent qurumu (ailəvi biznes müəssisələrində isə sahibkar meneceri) tərəfindən rüşvət əleyhinə fəaliyyət proqramı rəsmən qəbul edilibmi?

1.1.3. Şirkətdə rüşvəti tamamilə qadağan edən davranış kodeksi və ya digər ekvivalent sənəd mövcuddurmu?

2. RÜŞVƏT ƏLEYHİNƏ FƏALİYYƏT PROQRAMININ HAZIRLANMASI

2.1. Tərtibat.

2.1.1. Proqram şirkətin effektiv nəzarəti altında olan bütün fəaliyyətlər zamanı rüşvətin qarşısını almaq məqsədi daşıyan dəyərləri, siyasətləri və proseduraları aydın və müfəssəl şəkildə müəyyən edibmi?

2.2. Son ən yaxşı təcrübələrin monitorinqi və maraqlı tərəflərlə əməkdaşlıq.

2.2.1. Proqramın hazırlanması və icrasına səmərəli ola biləcək bütün daxili və xarici məsələlərdən, o cümlədən son ən yaxşı təcrübələrdən şirkətin məlumatlı olmasını təmin edən proseduralar mövcuddurmu?

3. RÜŞVƏTİN SPESİFİK FORMALARI

3.1. Siyasi xarakterli ödənişlər (kampaniya fondları).

3.1.1. Şirkətdə birbaşa və ya dolayı olmasından asılı olmayaraq siyasi xarakterli ödənişləri (kampaniya fondlarını) tənzimləyən siyasət və proseduralar mövcuddurmu?

3.1.2. Şirkətin siyasəti siyasi xarakterli ödənişlərə (kampaniya fondlarına) ümumiyyətlə icazə vermirsə, bu ödənişlərin baş verməsinin qarşısını alacaq proseduralar mövcuddurmu?

3.1.3 Əgər şirkətin siyasəti siyasi xarakterli ödənişlərə (kampaniya fondlarına) icazə verirsə, bu fondların biznes əməliyyatlarında ədalətsiz üstünlük əldə etmək məqsədilə siyasi partiyalara, təşkilatlara və ya ayrı-ayrı siyasətçilərə birbaşa və ya dolayı ötürülməsinin qarşısını alacaq siyasət və proseduralar mövcuddurmu?

3.1.4. Siyasi xarakterli ödənişlərin (kampaniya fondlarının) şirkətin rəsmi maliyyə sənədlərində qeydə alınmasını təmin edən proseduralar mövcuddurmu?[4]

3.2. Xeyriyyə xərcləri.

[4] Şirkətin siyasi xarakterli ödənişlərə (kampaniya fondlarına) icazə vermədiyi hallarda da, ya yanlışlıqla, ya da bu siyasətin qəsdən pozulması kimi belə ödənişlər baş verərsə, onlar da rəsmi maliyyə sənədlərində qeyd olunmalıdır.

3.2.1. Şirkətin xeyriyyə xərclərinin heç bir halda gizli rüşvət forması almasına yol verməmək üçün proseduralar və nəzarət mexanizmləri mövcuddurmu?

3.2.2. Şirkətin xeyriyyə xərclərinin öncədən nəzərdən keçirilməsi və təsdiqlənməsi üçün proseduralar və müvafiq səlahiyyət mərhələləri mövcuddurmu?

3.2.3. Şirkətin rəsmi maliyyə sənədlərində xeyriyyə xərclərinin qeydə alınmasını təmin edən proseduralar mövcuddurmu?

3.2.4. Əgər şirkətin xeyriyyə fondu və ya təşkilatı varsa, həmin qurumun ödənişlərinin gizli rüşvət forması almasına yol verməmək üçün proseduralar və nəzarət mexanizmləri mövcuddurmu?

3.3. Sponsorluq.

3.3.1. Şirkətin sponsorluq xərclərinin heç bir halda gizli rüşvət forması almasına yol verməmək üçün siyasət və proseduralar mövcuddurmu?

3.3.2. Sponsorluğun öncədən təsdiqi və sponsorluq ödənişlərinin normal satınalma proseduraları ilə uyğunluğunu təmin edəcək proseduralar mövcuddurmu?

3.4. Asanlaşdırma ödənişləri.

3.4.1. Asanlaşdırma ödənişlərini tənzimləyən siyasət və proseduralar mövcuddurmu?

3.4.2. Əgər şirkətin siyasəti asanlaşdırma ödənişlərini qadağan etmirsə, bu ödənişlərin aşkarlanması və aradan qaldırılması üçün tələblər irəli sürürmü?

3.4.3. Asanlaşdırma ödənişləri ilə bağlı siyasətin icrasının monitorinqi üçün proseduralar mövcuddurmu?

3.5. Hədiyyələr, qonaqpərvərlik və digər xərclər.

3.5.1. Şirkətin hədiyyələr, qonaqpərvərlik və digər xərcləri tənzimləyən siyasət və proseduraları mövcuddurmu?

3.5.2. Şirkətin hədiyyələr, qonaqpərvərlik və digər xərclərlə bağlı siyasətinin icrasını təmin etmək üçün proseduralar və nəzarət mexanizmləri, o cümlədən müvafiq məhdudiyyətlər və hesabatlılıq proseduraları mövcuddurmu?

3.5.3. Əməkdaşların hədiyyələr, qonaqpərvərlik və digər xərclərlə bağlı davranışlarını tənzimləyən aydın və dəqiq təlimatlar mövcuddurmu?

3.5.4. Hədiyyələr, qonaqpərvərlik və digər xərclərlə bağlı təlimatlar barəsində əməkdaşların və biznes tərəfdaşlarının məlumatlandırılması üçün müvafiq proseduralar mövcuddurmu?

4. TƏŞKİLATİ MƏSƏLƏLƏR VƏ SƏLAHİYYƏTLƏR

4.1. Proqrama dair öhdəliklər və vəzifələr.

4.1.1. Direktorlar şurası və ya digər ekvivalent qurum (eləcə də, ailə biznesində sahibkar menecer) rüşvət əleyhinə siyasət və fəaliyyət proqramına dair öhdəlik götürübmü?

4.1.2. Direktorlar şurası və ya digər ekvivalent qurum (eləcə də, ailə biznesində sahibkar menecer) proqramın icrası üzərində birbaşa və ya dolayı (məsələn, komitə vasitəsilə) nəzarət həyata keçirirmi?

4.1.3. Baş icraçı direktor (CEO) və ya digər ekvivalent şəxs proqramın ardıcıl olaraq həyata keçirilməsini təmin etmək üçün məsuliyyət daşıyırmı?

4.1.4. Direktor və ya yüksək rəhbərlik proqramın icrasına görə məsuliyyət daşıyırmı?

4.2. Direktorlar şurası və menecment tərəfindən öhdəliklərin nümayişi

4.2.1. Şirkət öz direktorlarının proqramın tələblərinə məcburi qaydada əməl etməsini müəyyən edibmi?

4.2.2. Direktorların proqramın tələblərini pozması hallarında onlara qarşı sanksiyalar nəzərdə tutulurmu?

5. DƏSTƏK VƏ ƏMƏLİYYAT FUNKSİYALARI

5.1.1. Proqramın icrasına yardım məqsədilə dəstək və əməliyyat funksiyalarının zəruri bacarıq və resurslara malik olmasını təmin edəcək proseduralar mövcuddurmu?

5.1.2. Rüşvət risklərini önləmək və müvafiq sağlamlaşdırıcı tədbirlər həyata keçirmək məqsədilə satış və marketinq proseduralarının yoxlanılması üçün nəzarət proseduraları mövcuddurmu?

5.1.3. Rüşvət risklərini önləmək və müvafiq sağlamlaşdırıcı tədbirlər həyata keçirmək məqsədilə podrat və satınalma proseduralarının yoxlanılması üçün nəzarət proseduraları mövcuddurmu?

6. BİZNES MÜNASİBƏTLƏRİ

6.1. Filiallar.

6.1.1. Şirkətin proqramının onun effektiv nəzarəti altında olan bütün biznes qurumlarında icrasını təmin edən siyasət və proseduralar mövcuddurmu?

6.1.2. Şirkətin proqramının icrasına görə şirkətin filiallarının baş menecerlərinin məsuliyyət daşımasını təmin edən siyasət və proseduralar mövcuddurmu?

6.1.3. Şirkətin proqramının filiallarda icrasına dair həmin filialların baş menecerlərinin yazılı şəkildə hesabat verməsini təmin edən siyasət və proseduralar varmı?

6.1.4. Şirkətin sənədlərində baş menecerlərin proqramın icrasına dair yazılı hesabat verməsi faktları öz əksini tapıbmı?

6.2. Əhəmiyyətli sərmayələr.

6.2.1. Şirkətin əhəmiyyətli sərmayə yatırdığı biznes qurumlarında da ekvivalent proqramların icrasını təşviq edən proseduralar mövcuddurmu?

6.3. Birgə müəssisələr və konsorsiumlar.

6.3.1. Birgə müəssisə təsis etməzdən və ya konsorsiuma daxil olmazdan öncə kompleks yoxlama (due diligence) aparılmasını təmin edən proseduralar mövcuddurmu?

6.3.2. Şirkətin effektiv nəzarəti olan birgə müəssisə və konsorsiumlarda şirkətin proqramına uyğun proqramın olmasını təmin edəcək siyasət mövcuddurmu?

6.3.3. Şirkətin effektiv nəzarəti olan birgə müəssisə və konsorsiumlarda şirkətin proqramına uyğun proqramın olmasını təmin edəcək prosedura mövcuddurmu?

6.3.4. Şirkətin effektiv nəzarəti olan birgə müəssisə və konsorsiumlarda digər iştirakçıların da şirkətin proqramından məlumatlı olması və oxşar proqram qəbul etməsini təşviq edəcək proseduralar mövcuddurmu?

6.3.5. Şirkətin effektiv nəzarəti olmayan birgə müəssisə və konsorsiumlarda digər iştirakçıların da şirkətin proqramından məlumatlı olması və oxşar proqram qəbul etməsini təşviq edəcək proseduralar mövcuddurmu?

6.3.6. Birgə müəssisə və konsorsiumlarda rüşvət əleyhinə fəaliyyət proqramlarının icrasının monitorinqi üçün proseduralar mövcuddurmu?

6.3.7. Birgə müəssisə və konsorsiumlarda şirkətin proqramı ilə ziddiyyət təşkil edən siyasətlər və biznes təcrübələri zamanı şirkətin müvafiq tədbirlər görməsi üçün proseduralar mövcuddurmu?

6.4. Çıxış strategiyası

6.4.1. Şirkətin proqramı ilə ziddiyyət təşkil edən siyasətlər və biznes təcrübələri zamanı şirkətin müvafiq tədbirlər görməsi üçün proseduralar mövcuddurmu?

6.4.2. Birgə müəssisə və ya konsorsiumun proqramı şirkətin proqramı ilə ziddiyyət təşkil etdikdə, rüşvət halları baş verdikdə və ya baş vermə ehtimalları yüksək olduqda şirkətin müştərək biznes fəaliyyətinə xitam verməsini təmin edəcək proseduralar mövcuddurmu?

6.5. Agentlər və digər vasitəçilər.

6.5.1. Şirkətin agentlər və digər vasitəçilər vasitəsilə qanunsuz ödənişlər etməməsini təmin edən proseduralar mövcuddurmu?

6.5.2. Şirkətin agentlər və digər vasitəçilər təyin edərkən kompleks yoxlama (due diligence) keçirməsini təmin edən proseduralar mövcuddurmu?

6.5.3. Agentlər və digər vasitəçiləri təyin etməzdən öncə kompleks yoxlama (due diligence) keçirmək üçün şirkətin öz əməkdaşlarına təlimatlar verməsini təmin edən proseduralar mövcuddurmu?

6.5.4. Şirkətin kompleks yoxlamaları (due diligence) düzgün sənədləşdirməsini təmin edən proseduralar mövcuddurmu?

6.5.5. Agentlər və digər vasitəçilərlə bütün razılaşmaların yüksək səviyyədə rəhbərlik tərəfindən öncədən razılaşdırılmasını tələb edən proseduralar mövcuddurmu?

6.5.6. Agentlər və digər vasitəçilərin şirkətin proqramına əməl edəcəyinə dair müqavilə öhdəliyinə girməsini tələb edən siyasət mövcuddurmu?

6.5.7. Agentlər və digər vasitəçilərin rüşvət verməsi və ya şirkətin proqramına zidd davranışları zamanı şirkətin onlarla əməkdaşlığa son verməsini nəzərdə tutan və müqavilədə təsbit edilən hüququnu təmin edəcək proseduralar varmı?

6.5.8. Agentlər, məsləhətçilər və digər vasitəçilərlə müqavilələr bağlanarkən sənədlərə çıxış hüququ, araşdırma ilə əməkdaşlıq və bu müqavilələrə aid digər məsələlərlə bağlı müddəaların həmin müqavilələrə daxil edilməsini təmin edən proseduralar mövcuddurmu?

6.5.9. Şirkətin proqramına əməl etmək barədə öhdəliklərin izahı, eləcə də pozuntulara görə sanksiyalar barəsində agentlərə və digər vasitəçilərə müvafiq məsləhətlərin və sənədlərin verilməsini təmin edən proseduralar mövcuddurmu?

6.5.10. Agentlərə və digər vasitəçilərə yalnız onların təqdim etdiyi qanuni xidmətlərə görə məqsədyönlü və əsaslandırılmış maddi kompensasiya ödənilməsini təmin edən siyasət və proseduralar mövcuddurmu?

6.5.11. Agentlərə və digər vasitəçilərə ödənilən maddi kompensasiyaların yalnız *bona fide* (yaxşı niyyətli) kanallarla ödənilməsini təmin edən siyasət və proseduralar mövcuddurmu?

6.5.12. Agentlərin və digər vasitəçilərin ofşor hesablarına ödənişlər etməmək barədə şirkətin siyasəti və bu siyasəti təmin edəcək proseduraları mövcuddurmu?

6.5.13. Şirkət, auditorlar və ya hökumət tənzimləyiciləri tərəfindən yoxlamalar üçün agentlərin və digər vasitəçilərin müvafiq mühasibatlıq və kargüzarlıq sənədləri tərtib etmələrinə dair müqavilə öhdəliyi götürmələrini tələb edən proseduralar mövcuddurmu?

6.5.14. Şirkətin agentlər, məsləhətçilər və digər vasitəçilərlə münasibətlərinin maliyyə tərəfinin düzgün qaydada sənədləşdirilməsini tələb edən proseduralar mövcuddurmu?

6.5.15. Agentlərin və digər vasitəçilərin davranışlarının şirkət tərəfindən monitorinqi üçün proseduralar mövcuddurmu?

6.5.16. Rüşvət verən və ya şirkətin proqramı ilə ziddiyyət təşkil edən davranış sərgiləyən agentlərə və digər vasitəçilərə şirkət tərəfindən sanksiyalar tətbiq olunurmu?

6.6. Podratçılar, alt podratçılar və təchizatçılar.

6.6.1. Şirkətin öz podrat və satınalmalarını ədalətli və şəffaf qaydada həyata keçirəcəyini dair rəsmi ictimai öhdəliyi, eləcə də bu öhdəliyi təmin edəcək proseduraları mövcuddurmu?

6.6.2. Rüşvət verən və ya verməkdə şübhəli olan podratçılar və təchizatçılarla əməkdaşlığın qarşısını almaq məqsədilə şirkət tərəfindən podratçı və təchizatçıların kompleks yoxlanmasını (due diligence) tələb edən proseduralar mövcuddurmu?

6.6.3. Şirkətin öz proqramı barədə podratçıları və təchizatçılarını məlumatlandırmasını təmin edən proseduralar mövcuddurmu?

6.6.4. Əhəmiyyətli podratçılar və təchizatçıların rüşvət əleyhinə effektiv proqramının olmasını təmin etmək məqsədilə onların monitorinqini aparmaq üçün proseduralar mövcuddurmu?

6.6.5. Podratçılar və təchizatçılar rüşvət verdikləri və ya şirkətin proqramına zidd davrandıqları zaman şirkətin onlarla əməkdaşlığa xitam verməsini təmin edəcək proseduralar mövcuddurmu?

6.7. Digər biznes münasibətləri.

6.7.1. Şirkətin əhəmiyyətli biznes münasibətlərində olduğu qurumlarda şirkətin proqramına oxşar proqramın həyata keçirilməsini tələb və ya təşviq edəcək siyasət və proseduralar mövcuddurmu?

7. İNSAN QAYNAQLARI

7.1. İnsan qaynaqları təcrübəsinin proqramla uyğunlaşdırılması.

7.1.1. Şirkətin insan qaynaqları siyasəti, o cümlədən işə götürmə, təlimlər, fəaliyyət qiymətləndirməsi, maddi kompensasiya, işçilərin təqdir edilməsi və vəzifələrinin artırılması kimi təcrübələri proqram qarşısında öhdəliklərə cavab verirmi?

7.2. Proqrama məcburi əməl olunması və sanksiyalar.

7.2.1. Əməkdaşların proqrama məcburi qaydada əməl etməsini tələb edən və pozuntular zamanı sanksiyalar nəzərdə tutan proseduralar mövcuddurmu?

7.3. Rüşvət verməkdən imtina edən əməkdaşların müdafiəsi.

7.3.1. Rüşvət verməkdən imtina edən əməkdaşın vəzifəsinin aşağı salınmayacağı, cəza və digər neqativ nəticələrlə üzləşməyəcəyinə dair təminat verən (rüşvət verməkdən imtina şirkətin itkilərlə üzləşməsinə səbəb olsa da) siyasət və proseduralar mövcuddurmu?

8. TƏLİMLƏR

8.1.1. Şirkətin proqramını daha yaxşı anlamaq, şirkətin gözləntiləri və sanksiyaları barədə məlumatlandırılmaq üçün direktorlara, menecerlərə və əməkdaşlara müvafiq təlimlərin keçirilməsini təmin edən proseduralar mövcuddurmu?

8.1.2. Əməkdaşlar üçün hər il (və ya iki ildən bir) təkmilləşdirmə təlimləri keçirilirmi?

9. PROBLEMLƏRİN QALDIRILMASI VƏ TƏLİMATLAR

9.1. Əməkdaşlar üçün şikayət kanalları.

9.1.1. Şirkət öz əməkdaşları və digər şəxslərin problemləri zamanında qaldırması və şübhəli vəziyyətlər barədə məsul işçilərə dərhal məlumat verməsini təşviq edirmi?

9.1.2. Şirkətin əməkdaşlarının heç bir cəza tədbirindən çəkinmədən rahat şəkildə problemləri qaldırması və pozuntular barədə məlumat verməsi üçün təhlükəsiz və əlçatan kommunikasiya kanalları mövcuddurmu?

9.2. Biznes tərəfdaşları və digərləri üçün şikayət kanalları.

9.2.1. Şirkətin biznes tərəfdaşları və üçüncü tərəflərin heç bir cəza tədbirindən çəkinmədən rahat şəkildə problemləri qaldırması və pozuntular barədə məlumat verməsi üçün təhlükəsiz və əlçatan kommunikasiya kanalları mövcuddurmu?

10. KOMMUNİKASİYA

10.1. Daxili kommunikasiya.

10.1.1 Şirkətin öz proqramı barədə bütün əməkdaşlarını rahat şəkildə məlumatlandırması üçün proseduralar mövcuddurmu?

10.2. Proqramla bağlı təlimatlar.

10.2.1. Bütün əməkdaşların təlimatlarla tanış olması və onları anlamasını ifadə edən sənədə imza atmasını tələb edən proseduralar mövcuddurmu?

10.3. Xarici kommunikasiya.

10.3.1. Şirkətin öz proqramı və onun icrasını təmin edən menecment sistemi haqqında informasiyanı ictimaiyyətə açıqlamasını təmin edən siyasət və proseduralar mövcuddurmu?

10.3.2. Rüşvət riski olan sahələr və problemlərin qaldırılması üçün kanallar barəsində şirkətin öz siyasət və proseduralarını üçüncü tərəflərə, o cümlədən təchizatçılara, podratçılara, müştərilərə və biznes tərəfdaşlarına çatdırmasını təmin edən proseduralar mövcuddurmu?

11. DAXİLİ NƏZARƏT VƏ KARGÜZARLIQ

11.1. Daxili nəzarət sistemləri.

11.1.1. Daxili nəzarət mexanizmləri, maliyyə hesabatlılığı və digər funksiyalar, o cümlədən rüşvət əleyhinə nəzarət mexanizmlərinə nəzarət etmək üçün Audit komitəsi və ya digər ekvivalent qurum mövcuddurmu?

11.1.2. Şirkət tərəfindən səlahiyyətlərin düzgün bölgüsü həyata keçirilibmi?

11.1.3. Proqramın daxili auditinin nəticələrini müvafiq əməliyyat personalı ilə müzakirə etmək üçün proseduralar mövcuddurmu?

11.1.4. Proqramda aşkarlanmış zəifliklər aradan qaldırmaq üçün müvafiq sənədləşdirilmiş fəaliyyət planı və konkret vaxt cədvəli nəzərdə tutan proseduralar mövcuddurmu?

11.2. Mühasibatlıq sənədləri və kargüzarlıq.

11.2.1. Bütün maliyyə əməliyyatlarını düzgün qaydada qeydə alan, hər zaman təftiş və auditə hazır mühasibatlıq sənədləri və kargüzarlığın aparılmasını nəzərdə tutan proseduralar mövcuddurmu?

11.2.2. "Qara" bank hesabları, düzgün göstərilməyən maliyyə əməliyyatları və rəsmi sənədlərdə saxta qeydlərin qarşısını almaq üçün proseduralar mövcuddurmu?

11.2.3. Şirkətin bütün fəaliyyətlərində hesabatlılığı, daxili nəzarət mexanizmlərini və düzgün mühasibatlıq və kargüzarlığı təmin edən proseduralar mövcuddurmu?

11.3. İcmal və daxili audit.

11.3.1. Daxili nəzarət sistemlərinin, o cümlədən mühasibatlıq və kargüzarlığın rüşvət əleyhinə nə qədər effektiv olmasını yoxlamaq üçün mütəmadi daxili audit keçirilirmi?

11.3.2. Qeydə alınmış bütün əməliyyatların audit yoxlamasından keçməsini təmin edən proseduralar mövcuddurmu?

11.3.3. Proqramın effektivliyi yoxlamaq və təkmilləşdirmə ehtiyaclarını müəyyən etmək üçün daxili audit keçirilməsini təmin edən proseduralar mövcuddurmu?

12. MONITORINQ VƏ İCMAL

12.0.1. Proqramın davamlı olaraq təkmilləşdirilməsi məqsədilə şərhlər və rəylər üçün əlaqə mexanizmləri və digər daxili proseslər mövcuddurmu?

12.1. Risklərin qiymətləndirilməsindən proqramın təkmilləşdirilməsində istifadə.

12.1.1. Şirkətin effektiv nəzarəti altında olan bütün əməliyyatlarda rüşvət riskinin davamlı olaraq qiymətləndirilməsi üçün proseduralar mövcuddurmu?

12.2. Proqramın monitorinqi və təkmilləşdirilməsində konsultasiyalardan istifadə.

12.1.1. Proqramın davamlı təkmilləşdirilməsi zamanı əməkdaşların görüşləri və rəylərinin nəzərə alınması üçün proseduralar mövcuddurmu?

12.1.2. Proqramın icrası və təkmilləşdirilməsi zamanı başlıca maraqlı tərəflərlə davamlı şəkildə konsultasiyalar aparmaq üçün proseduralar mövcuddurmu?

12.3. İnsidentlərdən qazanılan təcrübənin proqramın təkmilləşdirilməsi məqsədilə istifadəsi.

12.3.1. İnsidentlərdən qazanılan təcrübənin proqramın təkmilləşdirilməsi məqsədilə istifadəsi üçün proseduralar mövcuddurmu?

12.4. Audit komitəsi və Direktorlar Şurası tərəfindən icmal.

12.4.1. Rəhbərlik tərəfindən proqramın monitorinqi, eləcə də dövri olaraq yararlığının, adekvatlığının və effektivliyinin yoxlanması, zəruri təshihlərin aparılması üçün proseduralar mövcuddurmu?

12.4.2. Rəhbərlik tərəfindən proqramın icmalının nəticələrinin dövri olaraq Audit komitəsinə, İdarə heyətinə, Direktorlar şurasına və ya digər ekvivalent quruma təqdim edilməsi üçün proseduralar mövcuddurmu?

12.4.3. Əhəmiyyətli məsələlərin və problemlərin rəhbərlik və Direktorlar şurasına dərhal çatdırılması üçün proseduralar mövcuddurmu?

13. KƏNAR YOXLAMALAR VƏ AUDİT

13.1.1. Kənar yoxlama və ya audit keçirilibmi?

13.1.2. Kənar yoxlama və ya audit keçirilibsə, onun nəticələri Direktorlar şurasına təqdim olunubmu?

13.1.3. Kənar yoxlama və ya audit keçirilibsə, onun nəticələrinə uyğun olaraq müvafiq tədbirlər görülübmü?

MİNNƏTDARLIQ

"Beynəlxalq Şəffaflıq" təşkilatı biznes üçün rüşvət əleyhinə fəaliyyət prinsiplərinin hazırlanması təşəbbüsünə göstərdikləri maliyyə və digər dəstəyə görə Rəhbər komitənin bütün hazırkı və keçmiş üzvlərinə öz minnətdarlığını ifadə edir. Eyni zamanda komitənin keçmiş sədrləri Laurence Cockcroft və Jermyn Brooks-a, eləcə də öz ekspert şərhlərinə görə Peter Wilkinson-a təşəkkürlərimizi bildiririk.

Beynəlxalq Şəffaflıq

Alt-Moabit 96, 10559
Berlin, Almaniya

Tel: +49-30 3438 200
Fax: +49 30 3470 3912
ti@transparency.org
www.transparency.org

Şəffaflıq Azərbaycan
Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi

Cəfər Cabbarlı, 16, mən. 7.
Bakı, Azərbaycan

Tel: 0125962038
Fax: 0125962038
info@transparency.az
www.transparency.az